

*Əli Rza XƏLƏFLİ*

Hər sözümdə məna var, fəhmin olsa görərsən,
İndi özün sez görüm, sezə bilsən, ürəyim.
Hər açılan gül özü, bir bülbülün pənahı,
Qıyırsansa üz görüm, üzə bilsən, ürəyim.

Eşqim, sevgim həsrətə, ayrılığa tey olsun,
Kədərin qanın içim, təpərimə hey olsun.
Qəmləri şərbət elə peymanəmə mey olsun,
Qədəhimə süz görüm, süzə bilsən, ürəyim.

Yeriyirəm üstüncə yaddaş-yaddaş ağrının,
Danışıram dilində hər bir daş-daş ağrının;
Xudafərin üstündə doğma qardaş ağrının
Əzabına döz görüm, dözə bilsən, ürəyim.

Gözəllik mələyini - Cəbrayılı dağıdan,
Umacağın nə olar yırtıcıdan, yağıdan.

Qiyamətə bənzərdən Cəbrayılda gör kəm var?
Pompeyin dəhşətindən burda betər görkəm var.

Saraylar himinəcən dağıdılıb, sökülüb,
Yolların libası da çox köhnəlib, tökülüb.

Asfaltı da qaşıyıb vandallar acgözlüklə,
Keçirəm küçələri sanarsan bir çöllüklə.

Kökündən məhv edilib min yaşlı qoca çinar,
Gəncliyimin şahidi qürurdan uca çinar.

Viranələr köşküdür bağbansız qalan bağlar,
Əsirlikdə, girovda sahibsiz solan bağlar.

İş yerimə baxıram, yox olanı gör görüm,
Allahdan bəla gəlsin vandalları kor görüm.

Əzəmətli sütunlar, topdağıtmaz divarlar,
Sökülüb, aparılıb bu sərvətlər, bu varlar.

Cərgə çinarlar boyu yol məktəbə gedirdi,
Hər könüldə duyğular şövqə, təbə gedirdi.

Bir zaman çal-çağırlı bir şəhərin izi yox,
Kəhrizli bir şəhərin su gələn kəhrizi yox.

Xaqani görsə deyər Mədaindən betərdi,
Bir zaman ipək yolu bu şəhərdən ötərdi.

Gözəllikdə Cəbrayıl Allahdan bir pay - şəhər,
Nizami də deyərdi - lap Bərdəyə tay şəhər.

Kəhrizlər can verirdi bağlara, bağatlara,
Allahın sevgisindən pay düşüb bu diyara.

Yağının arxasınca bir qara daş deyirəm,
«Dəmir yumruq» əbədi var olsun - söyləyirəm.

Bir qərinə həsrətin acısını yemişəm,
İman əhli qovuşar istəyinə demişəm.

Bu yerdə öz dostuma bir şad xəbər söyləyim,
Sözün yüyrək atını hüzurunda əyləyim.

- Mənə mənzil verilib Cəbrayıl şəhərində,
Azad yurdun, torpağın bir aydın səhərində.

Əziz dostum, bu yerdə xatirələr uyuyur,
Qəlbimdən keçənləri bu torpaq, bu yer duyur.

Bilirəm ki, İlqar da nigaran qalıb məndən,
Harda olsam sözüm də gərək keçməsin gendən.

Gəzirəm ağrı ilə bu yaralı torpağı,
Ömürdən bir parçadır hər xatirə budağı.

Qəlbimdə səssiz-səssiz danışıram İlqarla,
Yaxın-uzaq keçmişi keçirəm duyğularla.

Əziz dostum, İsaxan, tarixin bu üzünü,
İlqar özü görsəydi yeməzdimi sözünü.

Yenə də sevərdimi o gözəl Nanasını,
Özü cənnət ətirli dağların nanəsini.

Hər zamanın öz hökmü, hər qismətin vaxtı var,
Hər sevginin öz yolu, taleyi var, baxtı var.

İncimәsin İlqar da, bir az uzaqdan gəldim,
Bir az təzə bahardan, bir az sazaqdan gəldim.

Səksəninci illərin bir qayğısız yazıdı,
Sevginin səmasında göylərin ayazıdı.

# IV. Xarabalıqlar üzərində nəğmə

## *"Ölməyən sevginin dastanı" əsərindən parçalar*

Dolanır ayrılığın iztirabı qanımda,
Dağılıb dost-tanışlar, kimsə yoxdu yanımda.
Təkliyin, tənhalığın vahiməsi canımda,
Yurd yerini gəz görüm, gəzə bilsən, ürəyim.

Könlümün quşu uçdu, vuruldum ağ bənizə,
Gözlərim tora düşdü, çökdü duman, çən izə;
Sevgimin selləri də çəkdi məni dənizə,
Bu ümmanda üz görüm, üzə bilsən, ürəyim.

Sozalan ümidlərdən təzə bağ sal, bitir gəl,
Gün batmamış inamı təzə günə ötür gəl.
Doğru nəyi bilirsən bir araya gətir gəl,
Düz olanı düz görüm, düzə bilsən, ürəyim.

Xələflinin üzünə gün düşdü, «ayaz» dedi.
Yuxu-yuxu nə gördün, bircə-bircə yoz, - dedi.
Hər nə yazdın söz elə, kitab-kitab yaz dedi;
Qələm götür yaz görüm, yaza bilsən, ürəyim.

...Uzun həsrətdən sonra gəlmişəm Cəbrayıla,
Bəlkə, yatmış duyğular, xatirələr ayıla.

Deyirəm yada salım burda ötən çağları,
Sözə gəlsin, sevinsin, qürurumun dağları.

Xarabalar üstündən boylanıram keçmişə,
Nə deyim bu şəhərə... bu dünyadan köçmüşə.

Sən demə, şəhərlər də öldürülür beləcə,
Küçələr, meydanlar da şəhid olur beləcə.

Gözlərimin önünə «Pompeyin məhvi» gəlir,
Uca Allah adına rəssamın səhvi gəlir.

Haylar meydan oxuyur Allaha tənə ilə,
Necə yazım, bilmirəm, heç söz də gəlmir dilə.

Yaddaş-yaddaş qayıtdım ömrün gənclik çağına,
Qonaq oldum ömrümün xatirələr bağına.

Baxıram Cəbrayılın çölünə, düzünə mən,
Vururam təzədən bu yurdun özünə mən.

Çərşənbələr sananır, Novruza lap az qalıb,
Sudan, oddan keçmişik, könül deyir yaz, qalıb.

Ala-tala xalıdır, torpağa nəfəs gəlir,
Qan qaynayır damarda, həyata həvəs gəlir.

Quzeylərin qarını gün əritmir hələ də,
Yaz gəlib çatıb artıq, qış vurnuxur tələdə.

Ataların dediyi olsun mənim avazım,
Ağ yelli qışım olsun, dumanlı, çənli yazım.

Şomu köbə bağlayıb, çöllərə yığan gəlsin,
Quşəppəyi, cincilim... salam ver, üzə gülsün.

Ağ tül pərdə sarıqda yaşıl yarpaqlı çiriş,
Cəbrayıl kətəsidir, dad biləndən bir soruş.

Bənövşələr nazlanır, gəl məni də gör, - deyir,
Bir utancaq qız kimi xəfifcə boyun əyir.

Cəbrayılın yazıdı... təbiət üzə gülür,
Gecikəndə misralar təbim də sözə gülür.

Erməni vandalları... lənət olsun adına,
Qənimisən bu yurdun doğmasına, yadına.

Sən də belə məxluqsan, qoy dərdin solmasın heç,
Axır gedişin olsun, dönüşün olmasın heç.

O yanda viranəlik, bu yanda abadlıq var,
Təzadlar dünyasıdır, doğmalıq var, yadlıq var.

Dağüstü park... sakitlik... üşüyür kəpənəklər,
Xalları seyr etdikcə nazlanırdı çiçəklər.

Bir tərəfdə iki gənc... söykək idi baş-başa,
Yer qalmayıb arada qorxu, hürkü, təlaşa....

Səssiz, sakit danışır, gənclərin duyğuları,
Həyat özü danışır çin olmuş yuxuları.

Vədəsiz buz ərimir, sular da donur, axmır,
Hər şey vədəyə baxır, vədə heç nəyə baxmır.

Bu vaxt iki kəpənək qovuşur bir-birinə,
Xallar da üst-üstədir, yetişib sir-sirinə.

İki könül bir yerdə qonub qoşa budağa,
Ürəklər havalanıb çatıb dodaq-dodağa.

Sevənlərin görkəmi yer üstündə görünər,
Ruhları göy üzündə dumanlara bürünər.

Sən yaxşı tanıyırsan bu gəncləri, oxucum,
Bu ladları yaradır İlham adlı toxucum.

Nana-İlqar timsallı sevənlər cütlüyü var,
Onların varlığında məhəbbət bütlüyü var.

Bülbüllər uçub getdi, sakitlik çökdü bağa,
Deyəsən bu gənclər də qalxdılar yığışmağa.

Gərək bu gün tez gedim, yoxsa, adım aranar,
Əgər evə gec çatsam yersiz söhbət yaranar.

- Etirazım yoxdur, Nana, - söylədi İlqar ona,
Amma, bəlkə, yolüstü... nə lazım söz duyana.

*(Davamı 9-cu səhifədə)*

# IV. Xarabalıqlar üzərində nəğmə

## “Ölməyən sevginin dastanı” əsərindən parçalar

*(Əvvəli 8-ci səhifədə)*

Nə duydu, desin Nana İlqarın sözlərindən,
Dolmuş sevgi buludu... oxudu gözlərindən.

Nana güldü, sonra da: - indi nə istəyirsən,
Açıq danış, ta niyə üz-gözünü əyirsən?

İlqarın üzü güldü, Xuraman gilə dəyək,
Dönək, amma nə deyək? Sevgidən nağıl deyək.

Xuraman bibim qızı - mənə böyük bacıdır,
Sevgimizi duyanlar könlümüzün tacıdır.

Xuraman tək deyildi, rəfiqəsi Sevinclə,
Onları qarşıladı, hər ikisi sevinclə.

Tələbə kirayəsi, zirzəmidə bir otaq,
Könül açan mənzilə tay olmazdı hər otaq.

Gəncləri qarşıladı sevgi ilə Xuraman,
İlqarın könlü güldü - belə ola hər güman.

Hal-əhval, şirin söhbət, çay gəldi, söz çözüldü,
Bilmədilər nə zaman vaxtın canı üzüldü.

Xuraman qayğılandı: belə olmaz, ay İlqar,
Bir elçilik nədir ki, nə düşünür bəs Vüqar?..

Bizi də unutmayın - Sevincin üzü güldü,
Vallah, İlqar bu Nana paytaxtın gözü güldü.

Ordan evə gəldilər, gəldilər xoş ovqatla,
Ayrıldılar ümidlə, inam dolu sovqatla.

Gəncləri yandırsa da eşqin odu, atəşi,
Könülləri hər səhər salamlayır günəşi.

Min illərdir sevənlər hər duyğuda təzədir,
Hər sevgi də təzədir, hər duyğu da təzədir.

Bəlkə elə dünya da təzələnir eşq ilə,
İnsanlıq da yaşayır hər bir eşqi məşq ilə.

...Qış çıxdı, yaz da keçdi... günlər sürətlə ötür,
Arzular ağacında təzə istəklər bitir.

Duyğular çiçəklənir bar-bəhər yoxdur hələ,
Hər səhər bir ümiddir, inamlar çoxdur hələ.

İsaxan danışır ki, İlqarın sədaqəti,
Yaşayan duyğulardı qəlbinin həqiqəti.

Sevənlər yenilməzdir eşqində hər kim olsun,
Ta ki, sevən qəlbinə öz eşqi hakim olsun.

İlqara sataşanlar, söz atanlar olurdu,
Tənələr, kinayələr elə tez də solurdu.

Bir başqası eyhamla deyir sözün əslini,
Ay İlqar, qaçırmayıb Qara Keşiş Əslini?..

Əvvəl bir az cırnayar, inciyərdi İlqar da,
Eşqindən xəbərdardı yaxşılar , yamanlar da.

Əsli-Kərəm dastanı... Nana da oxumuşdu,
Düşüncədə, fikirdə mənalar toxumuşdu.

Birlikdə baxmışdılar səhnədə operaya,
İnsanlığın qəlbində bu sağalmaz yaraya.

Mən xəcalət çəkirəm - Nana özü demişdi,
Qəddar ataya görə - hələ qəm də yemişdi.

Anlayıram mən səni, qəm eləmə, Nanacan,
İndi hansı zamandır, eşq oduna yana can.

Qoy şad olsun ruhu da bizim Üzeyir bəyin,
Güzgüsüdür bu əsər iki acı taleyin.

Beləcə xatirədir yaddaşda hər ötən gün,
Şirin bir iztirabla xəyallarda bitən gün.

Elçi göndər - söyləyir bu tələsən misralar,
Deyirəm axı, hələ qarşıda imtahan var.

Fizikadan imtahan... vaxtı ötüb ketmişdi,
Nana vaxtı İlqarla sevgiyə həsr etmişdi.

Sabah da imtahandır, heç bilmirəm neyləyim,
Qoy İlqar cavab versin, bəlkə, belə söyləyim.

İlqar da pozmadı heç halını, təhərini,
Darıxma heç, Nanacan, gözlə sən səhərini.

Mənalı baxışlarla Nananı xeyli süzdü,
İnci-inci sözləri seçib sıraya düzdü.

Bu həyat hər kəs üçün bir kitabdır təzə, tər,
Hər gülə bir naxış sal, həyatını bəzə, dər.

Min-min güllər içində öz gülümü seçmişəm,
Tərəddüdlər, şübhələr körpüsündən keçmişəm.

İstərdim.... Sən özün də yolunda inamlı ol,
İnamınla nurlanar özündə açılan yol.

Güc al, güvəncin olsun, ümiddən tutanından,
Bir kəsirin qalmasın, həyat imtahanından.

Nana dedi, yaxşı bir, filosofluq eləmə,
Eyhamlı sözlərini hikmətlərə bələmə.

Bu mənim düşüncəmdir, həyat düsturum budur,
Ən kövrək insanı da bir təskinlik ovudur.

Görürsənmi, İlqarın elə də dayaz deyil,
İnamı titrəyənə yolları ayaz deyil.

İlqar susdu, dinmədi... aradan sükut keçdi,
Qızın dolmuş gözləri kədər yedi, qəm içdi.

Handan hana dilləndi, qurban olum, ay İlqar,
Sənsizlikdə bir heçdir, yer üzündə hər nə var.

Mən səninlə yatıram, mən səninlə dururam,
Arzu, istək evimi mən səninlə qururam.

Bir həyat dərsim olur hər gün sənin yanında,
Xoşbəxt oluram mən eşqin həyəcanında.

Xəzər kimi çırpınır bu sevginin dənizi,
Görək hara aparır bu qismət, tale bizi.

Əzizim, Nana, sabah imtahanın olacaq,
Filosofluğuna da sonra vaxtın qalacaq.

İlqar ondan soruşdu: - kimdir ki, müəllimin,
Fərruxdur, - adını söylədi gənc alimin.

- Yaxşı olar, sən məndən doğrunu, düzü istə,
Başını qoydu İlqar Nananın dizi üstə.

Amma Nana danışır sözləri asta-asta,
İlqarın da yumulur gözləri asta-asta.

Bir imkan olmadı heç, ya qaynayam, ya daşam,
Sənin sevgi dərsindən vaxt tapam, hazırlaşam.

Bir gör necə döyünür, göstərdi ürəyini,
Qonaq etdi yumruğa İlqarın kürəyini.

Hər yumruğa İlqarın canından can gəlirdi,
Damarından çağlayan sevinən qan gülürdü.

Gözlərinə baxmaqdan doymur Nana İlqarın,
Yaşayır nəşəsini eşqində ilk baharın.

Nananın duyğuları güllənir, gül açırdı,
Hər sözündə sevgisi danışır, dil açırdı.

Günahını boynuna alırsanmı, ay dəli,
Görürsənmi olmuşam mən də sənə tay dəli.

Burda baxışlar deyil, həvəslər də qovuşur,
Ahənrüba dodaqlar, nəfəslər də qovuşur.

Özün yaxşı bilirsən, dostum, daha nə deyim,
Borcumdur bu sevgiyə təzim edim, baş əyim.

Budaqda iki bülbül nəğmə deyir sevgiyə,
Öpüşürlər arabir durub dimdik-dimdiyə.

...Əziz dostum İsaxan pəncərəmin önündə,
Dayanıb boylanıram üfüqlərin yönündə

Yaddaşın sərt üzündən fikir, xəyal dönməyib,
Xarabalar üstündən dərd ocağı sönməyib.

«Bahadır və Sona»dan bir daha yada salım,
Qələmimi, sözümü ocağa, oda salım.

Uçurum dərələrdən keçmək yenə çətindir,
Bir işıqlı yol görüb seçmək yenə çətindir.

On illik məsafə var, yeriyən, keçən görər,
Qarşıda nə gözləyir bəlanı seçən görər.

Bu zamanın suları dağlarda bulanacaq,
Fikir-fikir axacaq, qəlbləri dolanacaq.

Bəxt ulduzu sönəcək, kimlərin taleyində,
Kimlər üzə çıxacaq zamanın ələyində.

Hələ ki, bizim dostlar qayğısız günlər görür,
Hələ ki, xəyalları toylar, düyünlər görür.

Oxucum da nigaran qalmasın heç Nanadan,
Sevənlərin bəxtinə keşikçidir Yaradan.

Səhəri gün Nanadan xəbərsiz gedir İlqar,
Düşünür ki, müəllim yəqin ki, məni duyar.

Cavan Fərrux müəllim dinləyir çox maraqla,
İlqarı yola salır özü nikbin soraqla.

Bu barədə Nananın heç xəbəri yox idi,
Qəlbində, ürəyində həyəcanı çox idi.

İlqar onu gözləyir, əlində gül dəstəsi,
Zümzüməsi səssizcə yeni sevgi bəstəsi.

Al bir... mənə beş yazdı, özün bax kitabıma,
Vallah, heç baxmadı da qeydimə, cavabıma.

Nananın sözlərinə İlqar səssiz qımışdı,
Sağ olsun müəllimi, sözü bütöv çıxmışdı.

Belə həssas müəllim az olmayıb, görmüşük,
Onların xatirəsi heç solmayıb, görmüşük.

İndi Fərrux müəllim, hardasan, mən bilmirəm,
Mən sözümün sonuna sənsiz keçib gəlmirəm.

Yaxşılarsız bu dünya yamanlara qalardı,
Bu dünyanın gülləri saralardı, solardı.

Sevgiyə tapınsaydı yer üzündə insanlar,
Olmazdı bu dünyada qan içən, qan qusanlar.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 9-cu səhifədə)*

Qəddarlığın yolunu sevgi kəsir, bağlayır,
Sevgiyə qəsd edənlər neçə qəlbi dağlayır.

Bu gənclərə baxıram... yolları dumanlıdır,
Tarix özü nə doğar... neçə cür gümanlıdır.

Sevgi dindən ucadır, insanlar gərək bilsin,
Aliməqam sevgiyə gərək təzim edilsin.

...Əziz dostum İsaxan, dilimdə əzbər İlqar,
Sözümün bəzəyidir, dili xoş xəbər İlqar.

Nədənsə narahatam İlqarın taleyindən,
Bilmirəm keçəcəkmi zamanın əleyindən.

Özüm də bağlanmışam ruhu bəyaz oğlana,
İstəmirəm ayrıla, sinəsi də dağlana.

Elə Nana özü də günahsız bir ahudur,
Varlığında nəfəsi sevgisinin ahıdır.

Hiss edirəm, görürəm, o da qəlbən dərd çəkir,
Bəzən bəxt də, tale də qılıncını sərt çəkir.

Nanaya təskinliyə heç nə yaza bilmirəm,
Sevginin sərt qışından çıxar yaza, bilmirəm.

Bəlkə, bir gün dağıdar sevgilər sərhədləri,
Bir gün sökər məhəbbər düşüncədə sədləri.

Əziz dostum İsaxan, örnəkdir hər hekayət,
Bilənə işıq yolu, bilməzə sirr hekayət.

Şair Zəlimxan demiş: sözdə məna toxunsun,
Yazıblar oxumuşuq, biz də yazaq, oxunsun.

Həzrət Əli hikməti: yazılanlar, qalanlar,
Daha yaxın qohumdur, ruhu doğma olanlar.

Hər bir insan dövrünə, zamanına oxşayır,
Kimə qismət nə gələr, gümanına oxşayır.

Təzə yollar çəkilir - gələcəyin yolları,
Açılır üzümüzə sevənlərin qolları.

Doğmalarım mənimlə yeriyir hara getsəm,
Məndən ayrılmır onlar ölümə, dara getsəm.

Məşhur Çinar kəhrizi... xatirələr üstündə.
Ocaq yanır, odlanır, boğularsan tüstündə.

Ziyaxan oğlu Qasım Zəlimxana su verir,
Xatirələr ruhumda təzə duyğular dərir.

Gözlərimin önündə şeir deyir Zəlimxan,
Cəbrayıl kəhriziyəm... sözü öyür Zəlimxan.

Ruhunun nəğməsini varlığıma çəkirəm,
Qəsidəni təzədən təxmis ilə əkirəm.

«Ruhum»un rədifində insan qəlbi çırpınır,
Buludlar şaqqalanır, şimşək, duyğu çarpınır.

Qığılcımlar səpilir qəlbimin dağlarına,
Heyrandır duyğularım sözümün çağlarına.

«Mən bir dağ çayıyam...» çaylar dağların ruhu,
Çiçəklənən misralar, güllər bağların ruhu.

El havası «Qaraçı» ruhumu tel-tel eylər,
Sözümün axarını təxmisim sel-sel eylər.

Sonuncu bənd ustada ayrıca könül payım,
Ürəyimlə nurlanar mənim təxmis sarayım.

Xəyalımda qanadlanır göylərə uçanda ruhum,
Hər zərrəmdə işıq yanır nurunu saçanda ruhum.
Xeyir xəbər cıdırında çapardı qaçanda ruhum,
«Buludla yağış kimidir ruhda canım, canda ruhum,
Can heç nədir, bədən heçdir çırpınmasa qanda ruhum».

Dost yoluna bircə-bircə səpələnən ləçəklərdi,
Çəmən-çəmən açan güllər, dağ laləsi çiçəklərdi.
Könüllərdə yuvası var ürək adlı dibçəklərdi
«Uçuş yeri üfüqlərdi, bəzədiyi şəfəqlərdi,
Bir nəğmədi, bir əsərdi, hər çırpınan anda ruhum».

Təxmisimə gül gətirən düz sözümün vərindədi,
Üzdə bilmə dediyimi yeddi məna dərindədi.
Halal ruzi gəzənlərin zəhmət-zəhmət tərindədi.
«Çiçəklərin ətrindədi, sevənlərin xətrindədi,
Şeirimin sətrindədi xalis baldı şanda ruhum».

Çağırasan səda verər gah o dağdan, gah bu dağdan,
Araz üstə söz açacaq, gah o tağdan, gah bu tağdan,
Tarix-tarix salnamədir gah o çağdan, gah bu çağdan,
“Qarın rəngindəki ağdan, torpaqdakı yaşıl tağdan,
Rəng alıb, nişan götürüb, qalıb bu nişanda ruhum”.

Sərhədsiz karvan yoludur, İranı var, Turanı var,
Aram olmaz qışı yayı, yaylağı var, aranı var.
Bir Muğandı çöl üzündə nəsli hürkək ceyranı var,
“Göylər kimi meydanı var, neçə-neçə heyranı var.
Zəncirlənməz, buxovlanmaz qəfəsdə, zindanda ruhum”.

Lap sonuncu dənizəcən yağıları qovalanar,
Əzəlində Alplar başı, axırında sovalanar
Qəzəblərə sinə gərər, şirin sözə tovalanar.
“Yuva qurar, yuvalanar, hava görər havalanar,
Özünə bir sirdaş tapar, hər duyan insanda ruhum”.

Yananlara varlığında can-can deyən diləklərdi,
Doğu boyu Batıyacan durnalanan lələklərdi.
Sərhəd boyu yağılara qandonduran küləklərdi
“Görüşdüyü mələklərdi, qovuşduğu fələklərdi,
Həlak olmaz qasırğada, sarsılmaz tufanda ruhum”.

Dinəndə dilimə döndü, susdum qanıma susadı,
Əyilənə söykək olar, qocalana bir əsadı.
Azərbaycan sədasıdır, bayraqdı - Ana yasadı
“Turu-Sinada Musadı, çarmıxda həzrəti İsadı,
Həra dağda Məhəmməddi, dolaşır Quranda ruhum”.

Qövsi-quzeh üstündədi, yeddi rəngdə boyadadı,
Əshabi-kəhf içindədir, mağarada, röyadadı,
Sahib-zamanın yanında, bir görünməz dünyadadı.
“Məcnun kimi səhradadı, Tahir kimi dəryadadı.
Min illərdir qanad çalır nağılda, dastanda ruhum”.

Beş kimsənə gücündədir, şər izini yox eyləyər,
Kimsələrə yaxşılığı minnət qoymaz çox eyləyər,
Xəbisləri öz sözünə hədəf tutar, ox eyləyər,
“Tamahları yox eyləyər, gözü-könlü tox eyləyər,
Nə dərd olsa, Əlac tapar, şəfadı dərmanda ruhum”.

«Aşiqliyin işığında» yanan könül odasıdır,
«Bir bülbülün türküsü»ndə - zümzümədə ədasıdır.
«Bir an dayan, ey karivan»... ürəyimin sədasıdır
«Məndə sığar iki cahan»... bu, bir Tanrı nidasıdır,
Əbədi bir hökmrandı, hər iki cahanda ruhum».

Zirvələrin ağaranı saçlarımın bəyazıdı,
Xələflinin xəzan çağı, baharımın son yazıdı.
Taleyin, bəxtin Arazı, alnımda açıq yazıdı,
«Ləhni Davud avazıdı, Vaqif, Ələsgər sazıdı,
Ölümə meydan oxuyar yaşar Zəlimxanda ruhum».

Zülmətlərdə can çürüyər, göz açılar dan-dan deyər,
Sözün düzü Əli gücü, Zülfüqarda qan-qan deyər,
Əli Rzada yanan sözün dili-ağzı can-can deyər,
Gordu baba ocağıdır, sinəm üstə yan-yan deyər,
Oda, alova bükülər, közərər büryanda ruhum.